# Dil fakültələrinin aşağı kurslarında qrammatikanın kommunikativ metodla tədrisinin bəzi xüsusiyyətləri

**Gunay Şirəliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dillər Universiteti*
**E-mail:** gg_09_82@mail.ru

**Rəyçilər:** p.ü.f.d ,dos. F. Rzayeva,
filol.ü.f.d. V. Qənbərov

**Açar sözlər:** kommunikativ kompetensiya, linqvistik kompetensiya, situativlik prinsipi, fərdilik prinsipi

**Ключевые слова:** коммуникативная компетенция, лингвистическая компетенция, принцип ситуативности, принцип индивидуальности

**Key words:** communicative competence, linguistic competence, situational principle, principle of individuality

Bu məqalədə bizim əsas məqsədimiz kommunikativ metodla qrammatikanın tədrisinin bəzi xüsusiyyətlərini tədqiq etməkdir.

Xarici dilin tədrisində istifadə edilən kommunikativ metod 1970-1980-ci illərdə xarici dilin tədrisi paradiqmasında ciddi dəyişikliklər meydana gələndə yarandı. O vaxta qədər xarici dilin tədrisində ənənəvi-tərcümə metodundan istifadə edilirdi.

Xarici dilə yiyələnmə tədris metodikasından asılı olmayaraq nitqin dörd aspektinin – oxu, yazı, danışma və dinləyib anlamanın öyrədilməsini nəzərdə tutur. Adından göründüyü kimi, kommunikativ metodun əsas məqsədi tələbəyə canlı ünsiyyət aparmağı, yəni danışma və dinləyib anlamanı öyrətməkdir. Y.İ.Passovun fikrincə, kommmunikativ metod dilin bacarıq və vərdişlərinin hamısını – oxu və yazıdan danışma və dinləyib anlamaya qədər – inkişaf etdirir [4, s. 24]. Kommunikativ metodun üstün cəhətləri:

1. Tələbələr biri-biri ilə asanlıqla ünsiyyətə girirlər, onlarda danışmaq “qorxusu” olmur, fəal düşünmə tərzi formalaşır, situativ reaksiya, intuitiv reaksiya formalaşır;
2. Hər bir tələbənin fərdi xüsusiyyəti nəzərə alınır, ünsiyyət prosesi zamanı qrupdakı tələbələrin hamısı iştirak edir;
3. Ünsiyyət prosesinin yeniliyi və məzmunu daim dəyişir. Bu da tələbələrin əhval ruhiyyəsini dəyişir, onları motivasiya edir. Tələbə dərsə gələrkən nə isə yeni məlumat alacağını, yeni bir şey öyrənəcəyini bildiyi üçün dərsə marağı artır;

Kommunikativ metodun baza prinsipləri ingilis metodist-tədqiqatçısı H.Palmer tərəfindən qoyulmuşdur. O, öz metodunu “xarici dilin şifahı yolla öyrənilməsi” adlandırır. H.Palmer belə hesab edir ki, xarici dilin öyrənilməsi ana dilin öyrənilməsi kimi olmalıdır. Başqa sözlə, H.Palmer xarici dili öyrənmək üçün əvvəlcə dil materiallarını dinləyib anlamaq, sonra isə lüğət ehtiyatı zənginləşdikcə danışmağa başlamaq ideyasını irəli sürür [3, s. 26]. Beləliklə, xarici dili dinləmə və danışma yolu ilə öyrənmə kommunikativ metodun əsas məqsədi və vasitəsidir.

Kommunikativ metodla xarici dilin tədrisinin əsas prinsipləri aşağıdakılardır:

1) təlimin kommunikativ yönlülüyü; Dərsdə dilin tədrisi ünsiyyət vasitəsi kimi nəzərdə tutulur. Bunun həyata keçməsi üçün rol-oyunlardan, layihələrdən, audio-vizual yazılardan

istifadə edilir.

2) funksiya ilə formanın əlaqəsi; Bu dil vasitələrinin çox funksiyalı təyinatının kommunikativ dinamikasında tətbiqini nəzərdə tutur.

3) bütün şifahi və yazılı ünsiyyəti qarşılıqlı öyrənmə;

4) dərs vəsaitlərinin autentik xarakteri; Dil daşıyıcıları tərəfindən tərtib edilən autentik və tədris məqsədi üçün nəzərdə tutulmayan materialların, məsələn, qəzet materiallarının, kiçik həcmli videofilmlərin, kütləvi-elmi və bədii mətnlərin istifadəsi nəzərdə tutulur.

5) situativlik prinsipi; Kommunikativ təlim təbii dil daşıyıcılarının öz dillərini öyrəndiyi kimi, yəni təbii situasiyalarda öyrədilir.

6) informasiya boşluğu prinsipi və ya informasiya çatışmazlığı (information gaps); Bu prinsipin əsas məğzi ondan ibarətdir ki, kommunikantlardan biri digərlərinin bilmədiyi informasiyaya malikdir və bu onları ünsiyyətə sövq edir.

7) şəxsiyyətə yönəlmiş təlim; Bu təlimdə əsas şəxs öz dostları ilə birlikdə müxtəlif layihə və oyunlarda iştirak edən tələbədir. Təlim prosesinin kreativliyi də elə məhz bundan ibarətdir ki, istisnasız olaraq bütün tələbələr tədris materialının seçilməsində, oyunlarda iştirak edir.

8) qarşılıqlı əlaqənin adekvatlığı; Dərs prosesində səhvlərin elə düzəlməsi nəzərdə tutulur ki, onlar ünsiyyətə mane olmasin.

Xarici dilin tədrisində qrammatika xarici dili anlama və danışmaya əsaslanan özünəməxsus bir çərçivədir. Yazı və canlı nitqdə düzgün qrammatik formaların tətbiqi qrammatik bacarıqların inkişaf etdirilməsi vasitəsilə həyata keçirilir. Qrammatik bacarığa yiyələnmək bütün növ nitq fəaliyyətlərinin tərkib hissəsidir.

Müasir dövrümüzdə xarici dili öyrənərkən qrammatik bilik və bacarıqlara yiyələnmək kommunikativ kompetensiyanın vacib komponentlərindən biridir. Nitq kommunikasiyası zamanı insanlar dilin lüğət ehtiyatından və qrammatikadan istifadə edərək cümlələr qurur və onunla öz fikirlərini bildirirlər. Lakin xarici dil öyrənən tələbə qrammatik qayda və söz ehtiyatından əlavə "situativ qrammatika"ya da yiyələnməlidir, yəni danışan ilə adresat arasında olan münasibət, ünsiyyətin məqsədi və başqa faktorlar da nəzərə alınmalıdır. Ünsiyyət prosesində nitq partnyorunun sosial statusu da nəzərə alınmalıdır.

Qrammatika dil haqqında elmin bir sahəsidir. Daha doğrusu cümlənin qrammatik cəhətdən necə düzgün tərtib edilməsini bildirən qanunlar toplusudur. Qrammatikanı bilmək – qrammatik hadisənin formasını, istifadə rolunu və nitq funksiyasını bilmək deməkdir. Dilin dörd kompetensiyasına — oxu, dinləyib anlama, yazı və danışmaya yiyələnmək üçün qrammatikanı bilmək çox vacibdir.

Qrammatikanı tədris edərkən iki yanaşmadan istifadə edilir: implisit (qaydaları izah etmədən) və eksplisit (qaydaları izah edərək). Y.N.Solovova qeyd edir ki, hal-hazırda bu yanaşmaların ayrı-ayrı işlənməsi halları çox az olur [5, s. 34]. Qrammatik qaydaların implisit yaxud eksplisit yolla tədrisi bir çox amillərdən asılıdır: tələbələrin yaşından, izah edilən qrammatik materialın mövzusundan və s. Müəllim bu metodları lazım gələrsə tədris prosesi müddətində dəyişə bilir. Materialın seçimi çox saylı amillərdən asılıdır: yaş, tələbələrin hazırlıq səviyyəsi, tədris edilən qrammatik materialın mövzusu və s. Y.N.Solovovanın fikrincə, bu metodun üstünlükləri:

1. Qrammatik quruluş uzun müddət öyrənilir;

2. Tələbələrdə qrammatik quruluşu nitqdə istifadə etmək cəhdi və bacarığı yaranır. Mənfi cəhətləri: tapşırıqlar monoton olur, tələbələr tez yorulur, şifahi tapşırıqlar a az yer verilir [5, səh. 29].

Kommunikativ-funksional metodla qrammatikanın tədrisinə aşağıdakı tələblər vardır:

1. Qrammatik material dilin təbii istifadəsini, süni nümunələr, uydurulmuş situasiyalar olmadan əks etdirməlidir.

2. Tədris materialında formal, semantik və funksional aspektləri müəyyən etmək lazımdır ki, tələbələr ayrı-ayrı kontekstlərdə onlar arasında necə əlaqə olmasını ayırd edə bilsinlər.

3. Qrammatik material elə həcmdə verilməlidir ki, kontekst daxilində möhkəmlənə bilsin.

4. İzahlar qısa, dəqiq, aydın, materiala uyğun olmalıdır.

5. Qrammatik materialın möhkəmlənməsi üçün ünsiyyətin bütün növlərindən, həmçinin cüt və qruplarla işdən də istifadə etmək məqsədəuyğundur [1, səh. 312].

N.D.Qalskovanın fikrincə, tələbəyə aşağıdakı produktiv qrammatik bacarıqlar öyrədilməlidir:

1. Qrammatik forma və konstruksiyaların yaradılması;

2. Ünsiyyət situasiyasından asılı olaraq qrammatik konstruksiyalrın seçilməsi və istifadəsi;

3. Kommunikativ niyyət dəyişdiyi halda, qrammatik ifadə və konstruksiyaları dəyişdirməyi bacarmaq;

4. Əsas qrammatik kateqoriyaları ana dilinə tərcümə etmək bacarığı;

5. Sxemə əsasən qrammatik qaydaların formalaşdırılması;

6. Yazılı və şifahi mətnlərdə qrammatik qaydaların fərqləndirilməsi;

Tələbəyə aşağıdakı reseptiv qrammatik bacarıqlar öyrədilməlidir:

1. Nitq prosesində qrammatik konstruksiyanı tanımaq, seçmək, onu mətndə mənasına görə uyğunlaşdırmaq;

2. Formal və funksional xüsusiyyətlərinə görə qrammatik qaydaları fərqləndirmək və ya müəyyənləşdirmək;

3. Qrammatik forma, konstruksiyanın mətnin mənasına görə təyin etmək;

4. Oxşar qrammatik formaları fərqləndirmək;

5. Sözün, konstruksiyanın qrammatik formasını proqnozlaşdırmaq;

6. Cümlə üzvlərini təyin etmək;

7. Sadə cümlədə söz sırasını müəyyənləşdirmək;

8. Mürəkkəb cümlədə baş cümlə ilə budaq cümlənin sərhəddini müəyyənləşdirmək;

9. Cümlədə elementlər arasında məntiqi, zaman, səbəb-nəticə, tabesizlik, tabelilik əlaqələrinin müəyyənləşdirilməsi;

10. Abzasda cümlələr arasında əlaqənin müəyyənləşdirilməsi [1, səh. 306];

Qrammatik bacarıq və vərdişlərin formalaşdırılması mərhələli şəkildə aparılmalıdır: tanışlıq, məşq, istifadə.

1. Tanışlıq mərhələsində tələbələrə qrammatik quruluşun mənasının, düzəlmə qaydasının izah edilməsi və öyrədilən qrammatik qaydaların ilkin möhkəmlədilməsi nəzərdə tutulur. Yeni materialın izahı üçün kiçik, çox da çətin olmayan mətn yazılmış lövhədən, ya da mətn, cədvəl, sxemdən istifadə edilir. Qrammatik materialı izah etmək:

1. Onun formal əlamətlərini açmaq;

2. Onun mənasını, semantik xüsusiyyətlərini izah etmək;

3. Nitq kontekstində funksiyasını aydınlaşdırmaq;

4. İlkin möhkəmləndirmə aparmaq deməkdir;

Sırf praktik üsulla bu funksiyanı təqlid, əvəzedici, şərti-nitq çalışmaları yerinə yetirirsə, nəzəri-praktik üsulla bunu analitik dil çalışmaları yerinə yetirir. Məsələn:

— ingilis dilinə tərcümə zamanı aşağıdakı cümlələrdə düzgün qrammatik formanı göstərin;

— göstərilən situasiyalarda qrammatik formaların mənasını təyin edin;

— uyğun formanı seçin;

— mətndə ……… ifadə edən qrammatik hadisələri tapın.

Bu cür çalışmaların əhəmiyyəti ondan ibarətdir ki, onlar yeni qrammatik hadisənin dərk edilməsinə və mənimsənilməsinə imkan yaradır.

Qrammatikanın öyrənilməsi xarici dilin öyrənilməsinin əsas aspektlərindən biridir, çünki qrammatikanın olmaması ilə cümlələr arasında əlaqə tam heç vaxt həyata keçirilə bilməz. Şübhə yoxdur ki, dilin effektiv mahiyyəti üçün qrammatik qanunları anlamaq lazımdır. Təbii mühitdə, uşağın ana dilini dərk etməsi kimi, öyrənmə prosesi məhdudlaşdırılmır, tez və ya gec material dərk ediləcəkdir. Tədris kursu zamanı müəllim müddətdən, əlbəttə ki, tələbələrin motivasiyasından asılı olur.

İkinci mərhələ qrammatik materialdan praktik istifadənin məşqidir. Bu mərhələ ehtiyatda olan dil materiallarının təlim situasiyalarında fəallaşdırılmasını nəzərdə tutur. Bu məqsədlə təqlidi (imitativ), əvəzedici, dəyişdirici (transformasiya) və kombinəedici çalışmalardan istifadə etmək məqsədəuyğundur. Bu mərhələnin vəzifəsi öyrənilən dil materiallarının tələbənin nitqinə daxil etməkdən ibarətdir. Bu vəzifəni şərti-nitq çalışmaları vasitəsilə həll etmək mümkündür. Bu çalışmaları yerinə yetirərkən tələbələr sual, inkar və ya əmr cümlələri qurmur, əksinə, onlar canlı nitqə daxil olurlar: təəccüblənirlər, soruşurlar, məsləhət verirlər, müqayisə edirlər, xəbərdarlıq edirlər və s. Əgər müəllimin qoyduğu suallar formal xarakter daşıyarsa (məsələn: "Gələcək zamanda cümlə düzəldin", "Vasitəli nitqi vasitəsiz nitqlə əvəz edin" və s.), bu çalışmalar mahiyyət etibarı ilə qismən nitqyönlü çalışmalar hesab edilir. İmitativ (təqlid) çalışmaların icrası zamanı tələbələr müəllimin nitqində eşitdiyi dil formalarını, leksik vahidləri dəyişmədən istifadə edir.

Üçüncü mərhələ — qrammatik materialların nitqdə tətbiqidir. Bu mərhələdə vərdişlərin bacarıqlara keçməsi baş verir. Bu mərhələnin çalışmaları şifahi mövzuların, ev oxusunun, diafilmlərin, kinofraqmentlərin materialları əsasında aparıla bilər. Bu çalışmaların metodik əhəmiyyəti ondan ibarətdir ki, onlar tələbələrin nitq fəallığını, müstəqilliyini inkişaf etdirir, onlarda motivasiyanın yaranmasına imkan yaradır.

Çox təəssüf ki, bəzən dərsliklərdə verilmiş tapşırıqlar sırf qrammatik, ya da kommunikativ olur. Kommunikativ qrammatikanı tədris edərkən yaxşı olar ki, qrammatik məqsədlə kommunikativ məqsədi özündə cəmləşdirən tapşırıqlardan istifadə edilsin.

Real, həyati hadisələrin müzakirəsi, ideyaların bölüşdürülməsi tələbələri çox maraqlandırır. Bu zaman bu situasiyadan istifadə edən müəllim onları dil (qrammatik) tapşırıqlarının həllinə yönəldəcəkdir.

Qrammatik və kommunikativ məqsədləri özündə cəmləşdirən vasitələrdən biri də rol-oyunlardır. Müxtəlif rol-oyunlar tələbələrin dil materialını zənginləşdirir. Mövzunun nədən ibarət olmasından asılı olmayaraq (məsələn: həkim ilə xəstə, mübahisə edən dostlar, satıcı ilə alıcı) bu rol oyunlar onların qrammatik materialı tez mənimsəməsinə təsir göstərir. Tələbələrin dialoji nitqlərinin inkişafı müsahiblərinin replikasına cavabla başlanır. Əvvəlcə, müəllim stimullaşdırıcı replikalar verir. Replikaların müxtəlifliyi qrupun səviyyəsindən, dil vasitələrindən, tələbələrin fərdi xüsusiyyətlərindən asılıdır. Sonra stimullaşdırıcı replikaları tələbələrin özləri verir. Rol-oyunlar zamanı tələbələrin hamısı iştirak edir, hətta zəif tələbələr belə söhbətə qoşulur. Bərabərlik atmosferi bəzi utancaq, özünü ifadə etməkdə çətinlik çəkən tələbələri də ünsiyyətə cəlb edir. Oyunlar üç əsas vəzifəni yerinə yetirir:

1) tələbələri nitq ünsiyyətinə psixoloji cəhətdən hazırlayır;

2) tələbələr tərəfindən dil materialının dəfələrlə təbii təkrarını təmin edir;

3) tələbələrin situativ, spontan nitqinin yaranmasını şərtləndirən vacib dil materialını seçməkdə məşq etdirir;

Bu mərhələdə ingilis dilinin qrammatikasının kommunikativ tədrisi belə bir fikri

təsdiqləyir ki, xarici dilə müvəffəqiyyətlə yiyələnmək üçün təkcə ayrı-ayrı qrammatik qaydaları bilmək kifayət deyildir; tələbələr bu qaydaları real kommunikasiyada istifadə etməyi bacarmalıdırlar.

Xarici dilin tədrisinin bu mərhələsində müəllim tələbələr üçün etibarlılıq və əməkdaşlıq atmosferi yaratmalıdır. Dərs zamanı müəllimin üzərinə düşən vəzifə tapşırığın növündən asılı olaraq dəyişir: o, gah informasiya daşıyıcısı, gah məsləhətçi, gah da müşahidəçi qismində çıxış edir. Tələbələr dərsin çox vaxtını danışmaqla keçirirlər. Bu zaman tələbənin şəxsi xüsusiyyətləri nəzərə alınmalıdır: onun bilik səviyyəsi, etnik mənsubiyyəti, səhhəti, fərdi xüsusiyyətləri. Müəyyən səbəblərdən (sağlamlıq, dil mənsubiyyəti, utancaqlıq və s.) fəal dialoq apara bilməyən tələbəyə az leksik mətni olan rol vermək lazımdır ki, tələbə öz bacarıqsızlığına görə pis vəziyyətə düşməsin, eyni zamanda qrup tələbələrindən də geri qalmasın. İngilis dilində ünsiyyəti dərs zamanı intensivləşdirmək üçün aşağıdakı üsullardan istifadə etmək məqsədəuyğundur:

1. Videoproyektor və ya müxtəlif hərəkətlər vasitəsilə leksik vahidlərin se-mantizasiyası;
2. Müəllimlə dialoqun oxunması;
3. Dialoqdakı boşluqları doldurmaq;
4. Dialoqda cümlələrin sırasının bərpası;
5. Suallara cavab;
6. Müxtəlif tapşırıqların yerinə yetirilməsi;
7. Şəkil üzrə cümlələrin tərtibi;

Beləliklə, dil fakültələrinin aşağı kurs tələbələrinə ingilis dilinin qrammatikasının kommunikativ metodla tədrisinin bəzi problemlərini nəzərdən keçirdikdən sonra biz belə nəticəyə gəldik ki, qrammatika hansı metodla tədris edilirsə edilsin dilin tədrisində həmişə aparıcı mövqedədir. Başqa sözlə, qrammatikanı bilmədən fikrimizi ifadə edə bilmərik. İngilis dilinin tədrisində o zaman yüksək nəticə əldə etmək olar ki, qrammatika effektiv və səmərəli metodla tədris edilsin. Hal-hazırda bu metod — kommunikativ metoddur.

**Məqalənin aktuallağı.** Məqalə dil fakültələrində aşağı kurs tələbələrinə qrammatikanın kommunikativ yolla tədrisinin bir çox aktual xüsusiyyətlərinin tədqiqinə həsr edilmişdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq dil fakültələrinin aşağı kurslarında qrammatika fənninin kommunikativ yolla tədrisi nəzəri baxımdan araşdırılır və bu da işin elmi yeniliyini təşkil edir və məqalədən metodikaya dair nəzəri fənlərin tədrisində istifadə etmək olar.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən müəllim və tələbələr praktik cəhətdən (praktik qrammatika və metodika fənlərinin tədrisində) də yararlana bilər.

## Ədəbiyyat

1. Гальскова Н.Д. Гез Н.И. Теория обучения иностранным языкам, Лингводидактика и методика, М.: ACADEMA, 2006.

2. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам, М.: АРКТИ, 2003.

3. Пальмер Г. Устный метод обучения иностранным языкам. Москва.: Просвещение. 1960.

4. Пассов Е.И. Коммуникативный метод обучения иноязычному говорению. Москва.: Просвещение, 1991. 223 с. иностранным языкам, Базовый курс лекций, Москва.: Просвещение, 2015.

6.http://rirorzn.ru/publication/dopolnitelnoe-obrazovanie/kommunikativnyy-me-tod-v-obuchenii-inostrannomu-yazyku/

7.http://docplayer.ru/35303950-T-s-matveeva-kommunikativnyy-metod-obuche-niya-inostrannym-yazykam.html

8.http://xn--i1abbnckbmcl9fb.xnp1ai/%D1%81%D1%82%D0%B0%D1%82%D1%8C%D0%B8/608831/

**Г. Ширалиева**

## Некоторые особенности преподавания грамматики коммуникативным методом на младших курсах языковых факультетов

## Резюме

В данной статье рассматриваются проблемы преподавания грамматики английского языка посредством использования коммуникативного метода на младших курсах языковых факультетов.

Успешное овладение грамматической стороной речи определяется способностью учащихся к функционально адекватному восприятию и использованию грамматических структур в собственных высказываниях. Использование коммуникативного метода в обучении грамматике обогащает задания из учебников, оживляет урок и, как следствие, активизирует познавательную деятельность учащихся.

В этой статье мы постарались показать и проанализировать все три этапа обучения грамматике. В дополнение к этому мы предприняли попытку выявить и исследовать основные проблемы в обучении грамматике с помощью коммуникативного метода.

**G. Shiraliyeva**

## Some features of teaching English grammar with communicative method at lower courses of language faculties

## Summary

This article deals with the problems of teaching English grammar by means of using communicative method at lower courses of language faculties.

Successful mastery of the grammatical side of speech is determined by the ability of students to functionally adequate perception and use of grammatical structures in their own statements. The use of the communicative method in teaching grammar enriches the tasks from textbooks, enlivens the lesson and, as a result, activates the cognitive activity of students.

In this article we tried to show and analyze all three stages of teaching grammar. In addition to it we made an attempt to reveal and investigate the main problems in teaching grammar by using communicative method.

**Redaksiyaya daxil olub:** 08.04.2019